# İlham Əliyevin rəşadətli ordusu qələbəni təmin etdi

**Xalqların taleyinə, bəşəriyyətin gələcəyinə təsir edən həlledici amillərin sırasında liderlik böyük önəm daşıyır. İllərin, əsrlərin təcrübəsi göstərir ki, tarixi-siyasi sistemin xüsusiyyətlərindən asılı olmayaraq, liderlik fenomeni xalqların gələcək taleyində, dövlətin, dövlətçiliyin inkişafında başlıca rol oynayır.**

Liderlik təkcə öz tərəfdarlarını və yaxud da təmsil etdiyi xalqı arxasınca aparmaq qabiliyyəti deyil, o həm də tarix yazan, həmçinin lazım olan anlarda tarixin gedişatını dəyişməyi bacaran şəxsiyyətə məxsusdur. Belə dahi şəxsiyyətlər barədə bir çox xalqların və dövlətlərin tarixində yüzlərlə nümunələr var. Azərbaycan xalqının da tarixində və taleyində Ümummilli Lider Heydər Əliyevin rolu əvəzsizdir.

Şərəf dolu tarixi keçmişimizə əsaslanıb böyük qürur və iftixarla deyə bilərik ki, müasir Azərbaycan Ümummilli Lider Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən siyasi fəaliyyətinin məhsuludur. Nadir şəxsiyyət olan Heydər Əliyev öz xalqı üçün müstəqil müasir Azərbaycanı qurub-yaradıb. 2003-cü il oktyabr ayının 15-də xalqın böyük dəstəyi və sevgisi ilə Prezident seçilən dövlət başçısı İlham Əliyev isə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu 20 ildir ki, uğurla və ləyaqətlə davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyatımızın bütün sahələrində uğurlu islahatlar həyata keçirilib. 20 ildir ki, bölgələrimiz durmadan inkişaf edir, rayonlarımız, şəhərlərimiz getdikcə abadlaşır. 2020-ci ilin payızında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni işğalından azad olunmuş ərazilərimizdə hazırda geniş abadlıq və quruculuq işləri aparılır. Bu gün Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri ilə yanaşı addımlayır. Baxdıqca qürur duyduğumuz üçrəngli bayrağımız dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarında əzəmətlə dalğalanır.

Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı ilk günlərdən, başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da uğurlara hesablanmış islahatlar həyata keçirdi. Silahlı Qüvvələrə ayrılan vəsait ildən-ilə artırıldı. Bu qayğı və diqqət sayəsində qısa müddət ərzində güclü ordu quruldu. Yeni təyinatlı hərbi hissə və birləşmələr yaradıldı. Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tez-tez cəbhə bölgələrində yerləşən hərbi hissə və birləşmələrə səfərlər edirdi. Ölkə ictimaiyyətinin daim diqqət mərkəzində olan bu səfərləri zamanı Prezident İlham Əliyev torpaqlarımızın müdafiəsində dayanan hərbçilərlə görüşlər keçirir, onların qarşısında çıxışlar edirdi. Xidmətdə fərqlənən zabit və əsgərlərə mükafatlar verirdi. Silahlı Qüvvələrin Ali Baş Komandanının hərbi hissə və birləşmələrə səfərləri, çıxışları zabit və əsgərlərin döyüş ruhunu daha da yüksəldirdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında daim inkişaf edən ordumuz ən müasir silahlarla təmin olunurdu. Ali Baş Komandan həmişə çıxışlarında da bəyan edirdi ki, ordumuzu gücləndirməkdə başlıca məqsədimiz işğal altındakı torpaqlarımızı azad etmək və ölkəmizin ərazi bütövlüyünə nail olmaqdır. Prezident onu da bəyan edirdi ki, biz Qarabağ probleminin qan tökülmədən, sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Azərbaycandan fərqli olaraq işğalçılıq siyasəti yürüdən Ermənistan aqressiv mövqeyindən əl çəkməyərək danışıqlar prosesini uzatmağa can atır, sülhə gedən yolları bağlayırdı. Bu addımı ilə müharibəni qaçılmaz edirdi.

Əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu siyasətinin nəticəsi olaraq daim gücünü, qüdrətini artıran Azərbaycan Silahlı Qüvvələri qarşısında dayanan mühüm və müqəddəs tarixi vəzifələri şərəflə yerinə yetirməyə hazır və qadir idi.

Azərbaycan Ordusu gücünü, qüdrətini və yüksək döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də bütün dünyaya göstərdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi yazılmış Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, əlverişli yüksəklikləri, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizlədi. Bu döyüşlərin ən mühüm uğuru Lələtəpə yüksəkliyinin azad olunması oldu. Böyük strateji əhəmiyyəti olan yüksəkliyin azad olunması nəticəsində Cocuq Mərcanlının təhlükəsizliyi təmin edildi. Kənd qısa müddətdə bərpa edildi, uzun illər qaçqınlıq həyatı yaşayan sakinlər doğma yurdlarına döndülər.

Uğurla başa çatan Aprel döyüşlərindən sonra Azərbaycan Ordusu 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisini, o cümlədən Şərur rayonunun Günnüt kəndini düşməndən azad etdi. Dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, İrəvan-Gorus-Laçın yolu nəzarətə götürüldü.

Gündən-günə güclənən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ən böyük qələbəsini 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsində qazandı. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixin qızıl səhifələrinə yazdı. Azərbaycan xalqının iftixar və qürur dolu yeni qəhrəmanlıq salnaməsini yaratdı. 44 günlük Vətən müharibəsinin baş qəhrəmanına, qalib Sərkərdəsinə çevrildi. Zəfərlə başa çatan Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanan Azərbaycan ərazi bütövlüyünü təmin etməklə yanaşı, həm də tarixi ədalətin bərpasına nail oldu. 30 ilə yaxın xəyal olunanlar Azərbaycan Prezidentinin, onun rəhbərlik etdiyi ordunun gücü və qüdrəti sayəsində 44 gün ərzində gerçəkləşdi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev qətiyyətli qərarı ilə regionda çox mürəkkəb olan prosesi diplomatiyanın və siyasətin mümkün etdiyi ən mahir incəliklə həll etməyi bacardı. Vətən müharibəsində qazanılan Qələbəmizi diplomatik-siyasi müstəvidə cəsarət və qətiyyətlə möhkəmləndirdi. Bu gün Azərbaycan xalqı Qələbə əhval-ruhiyyəsi ilə, böyük coşqu ilə yaşayır. Bu Qələbə Azərbaycan xalqına, xalq da bu Qələbəyə layiqdir. Azərbaycan Prezidenti ən doğru zamanda ən doğru qərarı qəbul etməklə xalqımızın tarixi Qələbəsini təmin etdi. İlham Əliyev son 200 il ərzində ilk dəfə torpaqlarımızı azad edən Müzəffər Sərkərdə olduğunu bütün dünyaya göstərdi.

19-20 sentyabr 2023-cü ildə ordumuzun Qarabağda uğurla həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinə və bölgədəki separatçılara sarsıdıcı zərbələr vuruldu. Bu zərbə qarşısında duruş gətirə bilməyən düşmən ağ bayraq qaldırıb təslim oldu. Qarabağda separatizmə son qoyuldu. Uğurla başa çatan əməliyyatdan sonra Xankəndi, Ağdərə, Xocalı, Xocavənd, Əsgəran və başqa yaşayış məntəqələri işğaldan azad olundu.

Prezident İlham Əliyev 15 oktyabr 2023-cü ildə - xalqın böyük dəstəyi ilə Prezident seçildiyinin 20 ili tamam olan gün Xankəndi şəhərinə səfər etdi. Bu şəhərimizdə də Azərbaycan bayrağını dalğalandırdı. Prezident Azərbaycanın 30 ilə yaxın müddətdə pozulmuş ərazi bütövlüyünü bərpa etdi. Xalqın böyük sevgisini qazanmış Prezident İlham Əliyev 20 ildir ki, Azərbaycana rəhbərlik edir. Bu illər Azərbaycan tarixinə "Möhtəşəm 20 il" kimi düşüb. Bu möhtəşəmliyin, əzəmətin ardı yazılır. Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da Azərbaycan xalqının tarixinə daha şərəfli, daha ləyaqətli səhifələr yazılacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***